# UNESCO bütün gücünü Dağlıq Qarabağda ermənilərin məhv etdiyi tarix-mədəniyyət abidələrinə yönəldəcək

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan ərazilərində abidələrimizə qarşı həyata keçirlən vandalizm hərəkətləri, saxtalaşdırma aktları barədə kifayət qədər faktlarımız olsa da, hələ də beynəlxalq qurumlar dünyada qəbul edilən hüquq normalarına uyğun şəkildə ermənilərin bu təxribatçı davranışlarına qarşı heç bir tədbir görməyiblər.**



## Faiq Ismayılov: *"Bu müzakirələr nəticəsiz olmayacaq və UNESCO tərəfindən işğal altındakı abidələrimizin nəzarətə götürülməsinə nail olacağıq"*

Ermənilərin Azərbaycan abidələrinə qarşı törətdikləri vəhşiliklərin bütün beynəlxalq konvensiyalara zidd olduğu məlumdur. Dünyanın heç bir yerində işğal edilmiş ərazilərdə abidələrə qarşı belə davranış göstərilmir. Amma ermənilər abidələrimizin başına hər cür oyun açırlar.

Məlum olduğu kimi, Bakının evsahibliyi ilə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası öz işini davam etdirir. Bakı sessiyasında UNESCO üzvü olan ölkələrin təhlükə altında olan abidələri ilə bağlı müxtəlif panellərdə müzakirələr aparılır. Sessiyada erməni işğalı altında olan abidələrimizin də taleyi, vəziyyəti ciddi müzakirə mövzusudur. Bu istiqamətdə müzakirələr aparılır, çıxışlar edilir. Əlbəttə, işğal altındakı abidələrimizin taleyi yalnız bizi deyil, həm də beynəlxalq ictimaiyyəti ciddi narahat etməlidir. Çünki bu abidələr bəşər mədəniyyətinin çox qiymətli örnəkləridir, onların da bir qismi ermənilər tərəfindən dağıdılıb, bir qismi saxtalaşdırılıb, bir qismi isə qanunsuz olaraq konservasiya edilib. Bütün bunlar onu göstərir ki, ermənilər bu qanunsuz əməlləri ilə bizim izimizi o torpaqlardan silmək istəyirlər. Amma sözsüz ki, onların bu cəhdləri də uğursuzluğa düçardır.

Bakı sessiyasından gözləntilərimizdən biri işğal altındakı abidələrimizlə bağlı idi və artıq UNESCO da buna münasibət bildirib. Mədəniyyət naziri Əbülfəs Qarayevin bildirdiyinə görə, UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bildirib. "Biz Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində olan mədəni irs nümunələri ilə bağlı məsələni ciddi şəkildə UNESCO-nun bütün üzvlərinin qarşısında qoyuruq, onları məlumatlandırırıq. Artıq UNESCO-nun baş direktoru Odre Azule Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Bakıda olarkən həm cənab Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərində də bu məsələ qaldırılıb. UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bildirib və bu iş UNESCO ilə bizim diplomatlar arasında müzakirə olunacaq".

Ə.Qarayev onu da qeyd edib ki, bu, sadə proses deyil. "Amma əsas odur ki, Azərbaycan reallığı və işğal altında olan torpaqlarımızda mədəni sərvətlərimizin vəziyyətinin bizi narahat etməsi onlara tam aydın oldu. Biz UNESCO-nun fəal üzvlərindən biri olduğumuz üçün, təşkilat bu vəziyyətə biganə yanaşa bilməz. Ümidvarıq ki, sessiya uğurla başa çatandan sonra növbəti bir neçə ay ərzində də müzakirələri davam etdirəcəyik" - deyə nazir vurğulayıb.

*"... abidələrimizə qarşı törədilən erməni vəhşiliyinin qarşısını ala biləcək"*

Söhbət UNESCO-nun atacağı hansı addımlardan gedə bilər? UNESCO konkret olaraq işğal altındakı abidələrlə bağlı hansı addımları atmalıdır?

**Azərbaycanın işğal olunmuş ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ ilə bağlı UNESCO-nun da, digər beynəlxalq aidiyyəti qurumların da əməli iş görməsi arzuediləndir.** O vurğuladı ki, Memarlar İttifaqının sədri Elbay Qasımzadə ilə birgə sessiya çərçivəsində işğal altında olan abidələrimizlə bağlı sərginin keçirilməsi təşəbbüsünü qaldırıb, lakin hələ sərgi açılmayıb. "UNESCO-nun Azərbaycanın işğal altındakı tarix-mədəniyyət abidələrinə verə biləcəyi töhfə bu abidələrin mühafizəsini möhkəmləndirməkdən və həmin abidələrin erməniləşdirilməsinin, onların bir yerdən başqa yerə köçürülməsinin, formasının dəyişdirilməsinin qarşısının alınmasından ibarət ola bilər. Bu da əsaslanır 1954-cü ildə qəbul edilən Haaqa Konvensiyasına. Həmin konvensiyaya görə, üzv olan dövlətlər öhdəlik götürüblər ki, bir dövlət başqa dövlətin ərazisini işğal etsə belə, o, abidələrin formasının dəyişdirilməsinin, bir yerdən başqa yerə daşınmasının, uçurulub dağıdılmasının, vandalizmə uğradılmasının qarşısını almalıdır. Bu baxımdan, UNESCO-nun Bakı sessiyasını çox əhəmiyyətli hesab edirəm. Azərbaycan diplomatlarının UNESCO-nun baş direktoru, eləcə də təşkilat üzvləri ilə keçirəcəyi görüşlər işğal altındakı abidələrimizə göstərilən bir münasibət olacaq. İyulun 5-də və 6-da bununla bağlı müzakirələr keçiriləcək. Mən də həmin müzakirəyə dəvət edilmişəm.

Hesab edirəm ki, bu müzakirələr nəticəsiz olmayacaq və UNESCO tərəfindən işğal altındakı abidələrimizin nəzarətə götürülməsinə nail olacağıq. UNESCO Dağlıq Qarabağdakı tarixi abidələrlə bağlı daha ciddi addımların atılmasına hazır olduğunu bəyan edib və düşünürəm ki, bu qurum erməni vandalizminə məruz qalan abidələrimizlə bağlı tədbir görəcək, tarix-mədəniyyət abidələrimizə qarşı törədilən erməni vəhşiliyinin qarşısını ala biləcək" - deyə F.İsmayılov bildirdi.

***İradə SARIYEVA***